







# Tükənməz xəzinə

**Nəbi Xəzri-85**



**Bilavasitə Abşeron Rayon Mədəniyyət və Turizm Şöbəsinin müdiri İlham Manafovun təşkilatçılığı və iştirakı ilə keçirilən tədbirlər həmişə öz mükəmməlliyi ilə yadda qalır. Bu cür tədbirlərin sayı isə kifayət qədərdir.**

Bütün bunlar şöbənin işinə məsuliyyət və yaradıcılıqla yanaşmasına dəlalət edir. Bu zaman kollektivin özündə birləşdirdiyi müəssisələrin imkanlarından maksimum dərəcədə istifadə olunur...

Maraqlıdır ki, insanın sevincli günləri yalnız yaşadığı dövrə düşmür. Bəzən bu günlər insan həyatını dəyişəndən sonra da gələ bilir. Xalq şairi, SSRİ Dövlət mükafatı laureatı Nəbi Xəzrinin belə günlərindən biri bu yaxınlarda onu yetirən el-obada, dünyaya göz açdığı Xırdalanda yenidən yaşandı.

Abşeron Rayon İcra Hakimiyyətinin təşkilatçılığı ilə rayon mədəniyyət və turizm şöbəsinin keçirdiyi tədbirdə şairin 85 illiyini qeyd etdilər. Sağlığında olduğu kimi, həmin gün onun həmyerliləri, doğmaları, dostları - xalq şairi Söhrab Tahir, yazıçı Nahid Hacızadə, xalq artistləri Əminə Yusifqızı, Rafiq Əzimov, tanınmış müğənni Yaqub Zurufçu, vaxtilə onunla bir yerdə çalışmış şair Vüqar









Əhməd və digərləri qonağı idilər.

Rayon mədəniyyət evinin bədii rəhbəri Çimnaz Qurbanovanın apardığı məclisdə onlar Nəbi Xəzrinin yaradıcılığından, onun poeziyasından, şeiriyyətinin dilindən söhbət açdılar. Nəbi müəllimlə səfərlərini, görüşlərini, söhbətlərini yada saldılar.

Şairin XX əsrin ikinci yarısında Azərbaycan poeziyasının inkişafındakı xidmətlərini diqqətə çatdırdılar. Eyni zamanda, Nəbi Xəzri bir dramaturq kimi də yad edildi. Onun "Mənsiz dünya", "Torpağa sancılan qılınc", "Sən yanmasan", "Gecə döyülən qapılar", "Burla xatun" və s. dram əsərlərindən söhbət açıldı. Bildirildi ki, pyeslərinin əksəriyyəti Azərbaycan Dövlət Akademik Milli Dram Teatrında tamaşaya qoyulub, beynəlxalq festivallarda mükafatlar alıb. Türkiyədə, Tatarıstanda və digər ölkələrdə minlərlə tamaşaçı Azərbaycan səhnə sənətini və dramaturgiyasını alqışlayıblar.

Tədbirdə Nəbi Xəzri nəğməkar şair kimi də xatırlandı. Onun şeirlərindəki axıcılıq, ahəng musiqiyə yatır, sözlərdəki məna, məntiq isə bu mahnıların əhəmiyyətini ikiqat artırırdı.

Azərbaycanın məşhur bəstəkarları şairin sözlərinə musiqi bəstələməyi özlərinə şərəf bilirdi. Dünyaşöhrətli Müslüm Maqomayevdən tutmuş mahnıları dillər əzbəri olan müğənnilər Şövkət Ələkbərova, Zeynəb Xanlarova, Flora Kərimova, Nəzakət Məmmədova və başqaları onun sözlərinə yazılmış mahnıları böyük həvəs və ilhamla ifa edirdilər.

Tədbirdə həmin mahnılardan nümunələr rayon mədəniyyət evinin "Xəzri" instrumental ansamblının müşayiətilə Zöhrə Abdullayevanın, Nadir Qafarzadənin, Sevinc İbrahimovanın və b. ifasında dinlənildi.

Xalq artisti İlham Əsgərov, əməkdar artistlər Firuz Xudaverdiyev, Əli Nurun ifasında şairin şeirləri maraqla qarşılandı.

**Tədbirin sonunda şairin oğlu Hacı Arzu Babayev atası haqqında xatirələrindən söhbət açdı, həmyerlilərinə, Abşeron Rayon İcra Hakimiyyətinə, mədəniyyət və turizm şöbəsinin müdiri İlham Manafova, atasının qələm dostlarına təşəkkürünü bildirdi, sözünü Nəbi Xəzrinin "Ayaqlarım" şeirilə tamamladı...**

**E.HƏSƏNQIZI**